Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

# Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı vətəndaş müqaviməti

**Müasir dövrdə dövlətlərin dayanıqlı inkişafı yalnız iqtisadi göstəricilərlə deyil, həm də cəmiyyətin hüquqi və siyasi mədəniyyət səviyyəsi ilə ölçülür. Hüquqi və siyasi mədəniyyət, əslində, vətəndaşların dövlət idarəçiliyində fəallığını, qanunlara münasibətini, öz hüquq və vəzifələrini dərk etməsini müəyyənləşdirən mühüm göstəricilərdir. Azərbaycan üçün də bu məsələ xüsusi əhəmiyyət kəsb edir. Çünki hüquqi dövlət quruculuğu və demokratik cəmiyyətin inkişafı, yalnız vətəndaşların yüksək hüquqi və siyasi mədəniyyətə malik olduqları şəraitdə mümkün ola bilər.Eyni zamanda kənar zərərli xarici müdaxilələrin önlənməsində də cəmiyyətin hüquqi və siyasi savadlılığı mühüm önəmə malikdir.**

**Rusiya cəmiyyəti yalan faktlarla qızışdırılaraq Azərbaycana qarşı əsassız düşmənçiliyə sürüklənir**

Hazırda Azərbaycan üçün kənar zərərli xarici müdaxilələr məsələsi, bunun vaxtında önlənməsi olduqca mühümdür. Elə bu günlərdə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsindən sonra Rusiyadan Azərbaycana qarşı kütləvi informasiya kampaniyası ilə bağlı yaydığı bəyanat fonunda bunun daha bir əyani nümunəsini görmək mümkündür.

Sözügedən bəyanatda qeyd edilir: "Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası bildirir ki, avqustun 27-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsi yayılandan dərhal sonra Rusiya Federasiyası ərazisindən ölkəmizə qarşı kütləvi surətdə informasiya kampaniyasına start verilib. Monitorinq zamanı müəyyən olunub ki, aparıcının Zəngəzur dəhlizi ilə bağlı sualına Azərbaycan Prezidentinin tarixi faktlara əsaslanan cavabı kontekstdən çıxarılaraq saxtalaşdırılmış və ya təhrif olunmuş formada rus oxucusuna təqdim edilir. Rusiya cəmiyyətində anti-Azərbaycan təbliğatını alovlandırmaq məqsədilə təşkil edilən kampaniya televiziya kanalları və xəbər saytları, sosial media platformaları və müəyyən təsiretmə roluna malik radikal mövqeli şəxslər vasitəsilə aparılır. Kampaniyada Rusiya ərazisində fəaliyyəti qadağan edilmiş və məhdudlaşdırılmış feysbuk, instaqram və "X" kimi platformalardan, habelə digər ölkə vətəndaşlarının adından yaradılan sosial media profillərindən və botlardan da geniş istifadə olunduğu müşahidə edilib.

Kampaniyada diqqət çəkən digər bir element isə Azərbaycanın sosial media seqmentinin hədəfli reklamlar vasitəsilə seçilməsi və orada ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı təhdidedici fikirlərin yer almasıdır.

Onu da qeyd etməliyik ki, bu cür ikrah doğuran kampaniyaların Azərbaycanda ictimai rəyə heç bir təsiri yoxdur. Bu cür fəaliyyətlər yalnız Rusiya cəmiyyətini yalan faktlara söykənərək qızışdırmağa, qonşu dövlətlərlə əsassız düşmənçiliyə sürükləyir. Rusiyanı narahat edən "rusofobiya" sindromunun köklərini "Z" blogerlərin fəaliyyətində axtarmaq lazımdır. Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya aidiyyəti dövlət qurumları ilə birgə dövlətimizə qarşı aparılan bu qeyri-dost hərəkətləri yaxından izləyir və müvafiq qabaqlayıcı tədbirləri davam etdirir". Eyni zamanda prosesdə vətəndaşların da iştirakı vacibdir. Bu da məhz yüksək hüquqi və siyasi mədəniyyətdən keçir. Məlumdur ki, hüquqi mədəniyyət insanların hüquqi normaları qəbul etməsi, qanunlara hörmətlə yanaşması və gündəlik həyatında onlara əməl etməsi deməkdir. Azərbaycan Konstitusiyası və digər qanunvericilik aktları vətəndaşların hüquq və azadlıqlarını təmin edir. Lakin hüquqi mexanizmlərin işləməsi üçün vətəndaşların həmin normaları bilməsi və onlardan istifadə etməsi vacibdir. Məhz bu səbəbdən hüquqi maarifləndirmə, təhsil müəssisələrində hüquq dərslərinin təşkili, vətəndaş cəmiyyəti institutlarının maarifləndirici layihələri hüquqi mədəniyyətin artırılmasında mühüm rol oynayır. Siyasi mədəniyyət cəmiyyətin dövlət idarəçiliyində iştirakı, siyasi institutlara münasibəti və siyasi proseslərdə fəallığı ilə bağlıdır. Siyasi mədəniyyətin yüksək olduğu ölkələrdə vətəndaşlar seçkilərdə fəal iştirak edir, ictimai müzakirələrdə öz mövqelərini bildirir, həmçinin siyasi qərarların qəbul edilməsində dolayı yolla iştirak edirlər. Azərbaycan cəmiyyətində siyasi mədəniyyətin inkişafı demokratik dəyərlərin möhkəmlənməsi, şəffaflıq və hesabatlılıq prinsiplərinin güclənməsi ilə birbaşa bağlıdır. Dövlətin apardığı islahatlar, seçki institutunun təkmilləşdirilməsi, siyasi partiyaların və ictimai birliklərin fəaliyyətinə yaradılan şərait vətəndaşların siyasi proseslərə marağını artırır. Eyni zamanda kənar müdaxilələrə qarşı həmrəyliyin formalaşmasında bu faktor həlledici rol oynayır.

**Azərbaycan ictimai institutları ermənipərəst ABŞ konqresmenlərinə qarşı...**

Ər ictimai institutların ölkənin maraqlarının müdafiəsində müvafiq addımlar atmasını hüquqi və siyasi mədəniyyət savadlılığının artırılmasının nə dərəcədə böyük önəm kəsb etdiyinə əyani misal kimi göstərmək olar. Məlumdur ki, bir müddət əvvəl bir qrup ABŞ konqresmeni Azərbaycanın suveren əraziləri mövzusunda riyakarlığa yol verərək, Azərbaycan və Ermənistan arasında sülh prosesinə qarşı fəaliyyət göstərinblər, müvafiq bəyana qəbul ediblər. Bundan dərhal sonra Azərbaycan QHT-ləri ABŞ dövlət katibi Marko Rubioya müraciət edib. Burada qeyd edilir ki, Bayden-Blinken dövrünün ermənipərəst simaları, faktiki olaraq, ABŞ prezidenti Donald Trampın Cənubi Qafqazda sülh səylərinə qarşı açıq təxribata əl atıblar: "Sülh prosesini irəli aparmaq üçün ciddi, çətin iş davam etdirilir. Bir qrup ABŞ konqresmenin çağırışları isə bu prosesə mane olmaq, onu əngəlləmək cəhdindən başqa bir şey deyil. Onlar hər vəchlə süni gərginlik, regionda yenidən münaqişə ocağı yaratmağa çalışırlar. Regiona aidiyyəti olmayan, məsələlərdən xəbərsiz şəxslərin ABŞ-dakı erməni lobbisinin maddi həvəsləndirmələri müqabilində məsuliyyətsiz bəyanatlara imza atması təəssüf doğurur... Biz hesab edirik ki, məlum müraciəti təşkil edənlər ABŞ və Azərbaycan liderlərinin yazışmalarından da aydın görünən ikitərəfli əlaqələrin yeni yüksəliş mərhələsinə qədəm qoymasından narahatdırlar. İnanırıq ki, Cənubi Qafqazda davamlı sülhün bərqərar olması istiqamətində təqdirəlayiq əmək sərf edən Tramp administrasiyası "Vaşinqton bataqlığı"nın təmsilçiləri olan bu konqresmenlərin fəaliyyətinə doğru qiymət verəcəkdir". Bütün bunlar ölkənin maraqlarının müdafiəsində ictimai institutların rolunun mühüm önəm kəsb etdiyini bir daha göstərir. Azərbaycanın bu sahədə mühüm nailiyyətləri olsa da, hələ də müəyyən çağırışlar mövcuddur.



Vətəndaşların hüquqi və siyasi mədəniyyətinin artırılmasının ən mühüm vasitəsi təhsildir. Məktəb illərindən başlayaraq şagirdlərə vətəndaşlıq, hüquq, demokratiya dəyərləri aşılanmalıdır. Ali məktəblərdə hüquqi savadlılıq fənlərinin tədrisi genişləndirilməli, tələbələrə dövlət və cəmiyyət münasibətlərinin əsas prinsipləri izah edilməlidir.

Bundan başqa, kütləvi informasiya vasitələri və sosial şəbəkələr də hüquqi və siyasi maarifləndirmə prosesində mühüm rol oynayır. Televiziya proqramları, ictimai müzakirələr, internet layihələri və maarifləndirici kampaniyalar vətəndaşların biliklərini artırmaqla yanaşı, onları praktik fəaliyyətə təşviq edir. Qeyri-hökumət təşkilatları, ictimai birliklər, könüllü hərəkatlar vətəndaşların hüquqi və siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsində mühüm missiya daşıyır. Bu qurumlar hüquqi yardımlar göstərir, təlimlər keçirir, ictimai fəallığın artmasına şərait yaradır. Azərbaycan cəmiyyətində vətəndaş təşəbbüslərinin dəstəklənməsi dövlətin prioritetlərindən biridir və bu, vətəndaşların maariflənməsinə əhəmiyyətli təsir göstərir. Yenə bu fonda qeyri-hökumət təşkilatlarının və dig-

Bəzi vətəndaşların hüquqi biliklərinin məhdudluğu, siyasi proseslərə marağın yetərincə olmaması, bəzən isə yanlış informasiya mühiti bu prosesləri ləngidir. Buna görə də həm dövlət, həm də vətəndaş cəmiyyəti institutları daha aktiv fəaliyyət göstərməli, maarifləndirmə işlərini genişləndirməlidirlər. Beləliklə, vətəndaşların hüquqi və siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi dövlətin demokratik inkişafı üçün əsas şərtlərdəndir. Yüksək hüquqi mədəniyyət qanunun aliliyini təmin edir, siyasi mədəniyyət isə vətəndaşların dövlət idarəçiliyində iştirakını gücləndirir. Bu istiqamətdə görülən işlərin davam etdirilməsi Azərbaycan cəmiyyətinin daha da inkişaf etməsinə, sabitlik və rifahın möhkəmlənməsinə xidmət edir.

*Tahir TAĞIYEV*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*